*Xanımana MANAFLI*
*Bakı Dövlət Universiteti*

# ANARIN «BEŞMƏRTƏBƏLİ EVİN ALTINCI MƏRTƏBƏSİ» ROMANINDA FOLKLORİZM

"Ağ liman" povesti ilə Anarın yaradıcılığında yeni bir mərhələ başladı. Bu əsərə qədər yazdığı və çap etdirdiyi hekayələri kimi, "Ağ liman" da ədəbi mühitdə mübahisə doğurdu. Bu mübahisə əvvəlkilərdən fərqli olaraq daha geniş bir dairədə yayıldı və sürəkli oldu. Eyni zamanda "Ağ liman" Anarın yaradıcılığı üçün bir qələbə oldu, onu bir sıra xarici ölkələrdə tanıtdı. Anarın "Ağ liman"ı, təkcə öz müəllifinin yaradıcılığının yox, bütövlükdə ədəbi prosesin yeni bir mərhələsinin bəzi cəhətlərini əks etdirən əsərlərdən biri kimi diqqəti cəlb etdi. "Ağ liman"da hadisələr konkret bir məkan və zaman dairəsində baş verir. Belə bir dairə povestin bədii quruluşunda da bir prinsip kimi gözlənilmişdir. Açığı demək lazımdır ki, yazıçının bu insanlara antipatiyası da yoxdur. Anar hadisələri öz təbii axarında elə məharətlə təsvir edir ki, onlar ikrah doğurmur, insanın taleyində təzahür edən fakt, hadisə kimi, üzə çıxır. Oxucu buradakı təbiiliyin taledən doğmasına inanır. Çünki Anarda folklorizmdən yazıçı düşüncəsində məharətlə istifadə etmək bacarığı vardır. O, kökdən, milli əxlaqdan gələn dəyərləri özünün yaradıcılıq süzgəcindən keçirdikdən sonra oxucusuna təqdim edir. Bu mənada "Ağ liman"da elə bir meşşan həyat detalı görünmür, əksinə, insan taleyində, onun şəxsi həyatındakı uğur və uğursuzluqların silsiləsi bir-birini izləyir.

Maraqlı məsələlərdən biri ondan ibarət idi ki, 60-cı illərdə Stalin represiyaları bir qədər səngidikdən və sovetlər ölkəsinə yeni bir azadlıq ab - havası özünü göstərməyə başladıqdan sonra ilk növbədə mənəviyyat məsələləri önə çıxdı. Başqa xalqlarda olduğu kimi etnosun milli düşüncəsində yaşayan, etnoloji dəyərlər ilk növbədə xalqın yazılı ədəbiyyatında özünü göstərməyə başladı. Ənənəvi folklorizmin bədii yaddaşa qayıtma prosesi gücləndi. Bizə belə gəlir ki, "Ağ liman"da gördüyümüz mühit özü də milli düşüncə üçün yad deyildi. Yad əxlaq və düşüncə tərzi isə sovet cəmiyyətindən, onun əxlaq kodeksindən, insan hüquqları yzərinə qoyduğu qadağalardan ibarət idi. Həmin qadağalar Nemətləri, Dadaşları və onlarla belə insanları öz tələblərinə tabe edib həqiqi sevgi və təbii duyğulardan məhrum etmişdir. Birdən-birə cəmiyyət üzərindən sovet düşüncə tərzinə məxsus, sovet adamının standart sevgi, ailə əxlaqına məxsus ölçülərinin yenisi ilə əvəzlənməsi daha doğrusu ilə dəyişdirilməsi cəmiyyətdə təbii ki, etiraz doğurmalı idi. Sovet tənqidinin Anarın "Ağ liman"ına birmənalı olmayan münasibətinin kökünü məhz burada axtarmaq lazımdır. Sovet cəmiyyətinin ailə - nigah tələbləri bir çox özünəməxsus qaydalar icad etmişdir. Bunların əksəriyyəti "Ağ liman"da sökülməyə başlayır. Folklor düşüncəsindəki sevgi duyğuları yeni formada bədii nəsrə transilə edilməyə başlayır. Artıq burada cəmiyyətin bir sıra qadağaları sökülüb

dağılmağa başlayır. Sevgi və məişətdə yeni kateqoriyalar üzə çıxır. Lakin buna baxmayaraq insan xarakterindəki qısqanclıq, şübhə və s. kimi duyğular yeni insanı mənən xoşbəxt olmağa qoymur.

Bizə elə gəlir ki, "Ağ liman" məişəti yazıçının yaxından bələd olduğu, yaşadığı, duyduğu məişət həyatıdır. Burada hər şey həyatidir, qondarma heç nə yoxdur. Yazıçının ilk gənclik duyğu və düşüncələridir. Zaman, vaxt keçdikcə "Ağ liman" hadisəsi, yaxud faciəsi yazıçı üçün ötəri hissə və ya dünyaya çevrilmir. Anarın "Ağ liman"da təsvir etdiyi hadisələrin davamı özünü "Beş mərtəbəli evin altıncı mərtəbəsi"ndə göstərir. Əslində bu iki əsər bir taleyin, bir məhəbbətin tarixcəsidir. Yazıçının ilk gənclik müşahidələri əgər "Ağ liman"da başlayırsa, onun mənalı, unudulmaz sultanlıq dövrü "Beş mərtəbəli evin altıncı mərtəbəsi"ndə tamalanır. "Ağ liman"da Zaurla Təhminənin başlayan çılğın məhəbbəti "Beş mərtəbəli evin altıncı mərtəbəsi"ndə davam edir. Hər iki əsərdə nə kolxoz quruculuğu var, nə körpü tikintisi, nə də müharibə meydanının odlu - alovlu qarşıdurması. Anarın bu əsərində insan qəlbinin çırpıntıları, döyüntüləri var... Bunlar isə bizə "Əsli - Kərəm"dən, "Aşıq Qərib"dən, "Abbas - Gülgəz"dən və başqa məhəbbət dastanlarından, xalq əfsanələrindən yaxşı məlumdur. Bu əsərlərdə pozğun meşşan həyatı bizcə yoxdur. Bir-birinə bağlanan, könül verən, bir-birini sevən insanlar var.

Məsələn, diqqət versək görərik ki, Nemət Süreyyanın isti duyğularına laqeyid olmadığına görə özünün zəif təbiətinin, həlimliyinin qurbanına çevrilir. Nemət yaxşı başa düşür ki, bu nigahdan onun geri qayıdan yolu yoxdur. Hətta Süreyyanın anası bu nigahı nə qədər çətinliklə qəbul etsə belə yenə son nəticədə Nemət və Süreyyanın qərarı dəyişməz oldu. Nərgizin dünyaya gəlməsi ilə hər şey öz adi axarına düşür. Nemət öz ögey qızlarına da övlad məhəbbəti bəsləyir. Bəs Zaur Təhminəyə nəyə görə könül verir? Təhminənin Zaurun "Moskviç"inə minib uzaq dəniz çimərliyinə getməsi Təhminənin yüngül təbiətliliyi, meşşanlığı ilə bağlıydımı?... Anar hissi duyğunu elə təbiiliyi, səmimiliyi ilə qələmə alır ki, burada Təhminəni, yaxud Zauru qınamağa yer qalmır. Əgər Zaur öz gənclik hisslərini cilovlayıb bir yerə yığa bilmirsə, Təhminə də qınaq məqamı ola bilmir. Axı, Manaf özü Təhminəyə qarşı hissiyyatsızlığı ilə onun həyatını pozmuşdur. Təhminənin onu sevmədiyini bilə-bilə ailə quran, üstəlik aralarındakı mənəvi uçrumu günbəgün dərinləşdirən məhz Manaf deyildirmi?... Manafın ayda uç-dörd dəfə Tiflisə getmək adı ilə Zoyanın evində eyş - işrətdə olması meşşan həyatın Manafa məxsus xüsüsiyyəti idi. Elə bu münasibət Təhminəni evindən - eşiyindən soyutmuşdu. Ədəbi tənqid bir sıra hallarda Təhminənin şəxsində neqativ, meşşan mühit axtarmağa, Manafın ailə-məişət həyatını isə diqqətdən kənarda saxlamağa meyl göstərir. Əslində bütün pozitiv mövqeyi ilə yanaşı, Manaf neqativ həyatın səbəbkarıdır.

"Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanında əslində yazıçının bir üslubuna da diqqət yetirmək gərəkdir. İntellektual folklorizmi yaradıcılığı üçün başlıca yol seçən Anar bu əsərində də folklorizmin bir sıra ənənələrindən məharətlə bəhrələnə bilmişdir. Anar çox məharətlə xalq əfsanələrinə məxsus konflikt elementlərindən, atributlarından istifadə edərək "Beş mərtəbəli evin

altıncı mərtəbəsi"ndə maraqlı kompozisiya qurmağa nail olmuşdur. Romana diqqət verdikdə bunu aydın görmək mümkündür.

Zaurla Təhminənin məhəbbətindəki ülvilik, qeyri-adilik xalq əfsanə və rəvayətlərindən gəlmə ənənə üzərində qurulmuşdur. Bu məhəbbət Abbasla - Gülgəzin, Mahmudla - Məryəmin, Leyli ilə Məcnunun məhəbbəti civarında olub əsasən zaman və məkan ölçü fərqləri ilə bir - birindən seçilir. Əgər süjeti hər hansı bir məhəbbət dastanı, əfsanəsi, yaxud həmin mövzu əsasında yazılmış epik poema ilə müqayisə etsək, onlar arasında bir çox anoloji uyğunluqların mövcud olduğunu görərik. Lap elə Şərqin böyük məhəbbət əfsanəsi olan "Leyli - Məcnun" əsasında böyük Füzulinin yazdığı eyni adlı əsərlə romanı birləşdirən paralellər az deyildir. İlk öncə bunu Zaurla - Təhminənin məhəbbətində aydın görmək mümkündür. Təhminə də Leyli kimi öz sevgisinin qurbanı olur. O, Zaurun əbədi ayrılığının ağrısını dadanda buna tab gətirmi. Zaurun Təhminədən sonrakı xoşbəxtliyinə də oxucu inanmır. Əsərdə gördüyümüz, bir çoxunun hələ aydın dərk edə bilmədiyi "Altıncı mərtəbə", - olmayan mərtəbə Təhminənin Zaurla görüşməyə gəldiyi ruhun məkanıdır. Tez - gec yazıçının da mətnaltı qənaətinə görə həmin ruhlar bu mərtəbədə bir-birinə qovuşmalıdır.

Füzuli epik faciəsi ilə romanın başqa anoloji uyğunluqları da az deyildir. Burada olduğu kimi Anarın romanında da sevən aşiqlərin bir-birinə qovuşmasına mane olan cəmiyyətdəki "yaman addır". Amma romanda bu "yaman adı" Zaur yox, Təhminə daşıyır. Füzuli aşiqlərın bir-birinə qovuşmasına mane olan səbəbi Məcnunun adı üzərindəki "yaman adda" görürdü:

*«Bilirəm, quralın mənə şərəfdir,*
*Amma, xələfin də əcəb xələfdir.*
*"Məcnun" deyə tən eyləyir xəlayiq,*
*Məcnuna mənim qızım nə layiq?»* (2, səh. 114)

Elə bu səbəbə görə Leylini Məcnuna verməyən ata-ananın zaman daxilində dəyişib başqalaşan obrazını Anarın romanında görürük. Zaurun ata-anası, xüsusilə, anası Zivər, öz qızı Firəngizi Zaura vermək istəyən Alya xanım Təhminənin ünvanına yoğurub yapdıqları "yaman ad"dan iki gəncin sevgisinin məhv olması üçün məharətlə istifadə edirlər. Xalq əfsanəsində olduğu kimi, Anarın romanında da aşiq və məşuqə mane olan obrazlar varsa, kömək edənlər də az deyildi". Bunların içərisində Mədinə, Dadaş, bütün təzadlı cəhətlərinə baxmayaraq müsbət insan kimi yadda qalan Spartak da vardır. Bu obrazların Anar nəsrində əksi folklor qaynaqlarından süzülüb gələn düşüncənin nəsrdə intellektual transformasiyasıdır.

Anar intellektual folklorizmin imkanlarından bu şəkildə istifadə etməkdə çox mahirdir. O, folklor intelektində yaşayan süjet, motiv və obrazlardan nəsrində məharətlə istifadə etməyi bacarır, çox uzun və gerçək zaman və məkan daxilində hadisələri yeni insanların taleyinə səssizcə köçürə bilir. Bu, hər şeydən əvvəl məhz Anar yaradıcılığına məxsus bir xüsusiyyətdir, intellektual folklorizmin məhz Anara məxsus təzahür formasıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Anar yaradıcılığında intellektual düşüncədən bir mənalı şəkildə, sırf folklordan gəlmə formada, özü də üstü örtülü şəkildə istifadə edilməsi çox halda yazıçıya qarşı əsassız ittihamları araya gətirmiş, sovet dövrünün tənqidi tələbləri əsasında yanaşılan meyarlar bəzən onun düzgün başa düşülməməsinə, dərk edilməməsinə gətirib çıxarmışdır. Hissi duyğuları, insani hissləri, təmiz məhəbbət duyğularını nəsrə gətirməsi ədəbiyyatda meşşan həyatı əks etdirməsi kimi qəbul edilmiş, bəzən də yazıçının həmin həyata, mühitə kəskin tənqidi mövqedən yanaşdığı göstərilmişdir. Əslində, Anar güclü folklorizm qaynaqlarını hərəkətə gətirməklə nəsrdə yaratdığı emosional məqamlara, psixoloji, mənəvi-ruhi məqamlara meşşan mühitin əxlağı kimi tənqidi mövqedə deyil, əksinə, hər cür saxtakarlıqdan, qadağadan uzaq insanın həqiqi psixoloji, mənəvi-əxlaqi yaşamını nəsrə gətirməklə onların köklərdən, qaynaqlardan süzülüb gəldiyini, insanın əsl taleyinin göstəriciləri olduğunu yaxşı dərk edir. Bununla da Anar opponentləri ilə bu günün özündə də hələ qarşı-qarşıyadır. Vaxtilə tənqidçi A.Hüseynovun dediyi kimi, "Hələ povestdən ("Ağ liman" nəzərdə tutulur) Təhminəni meşşan əhatəsində güzəran keçirən, lakin daxilən bu aləmdən seçilən, həyatı saflığı, gözəlliyi ilə yaşamaq istəyən bir qadın kimi tanıyırıq. Yeni əsərdə ("Beşmərtəbəli evin altıncı mərtəbəsi") obrazın bütün bu keyfiyyətləri konkret, əyani lövhələrlə canlandırılır: roman bizi qəhrəmanın yaşayış, düşüncə tərzi, daxili sarsıntıları, kövrək hissləri, arzu - xəyalları ilə tanış edir. Təhminənin taleyi, daxili təlatümləri, üzərində təhkiyyənin təmərküzləşməsi yaxşıdır və təsvirin əhatəliyinə imkan yaradır, ancaq bu əhatəlilik, yəni əldə etdiyimiz məlumat, informasiya xarakterinə malikdir, onun fərdi-intim dünyasına vüsətli, təravətli bədii nüfuz kimi mənalanmır; zamandakı qüvvətli lirik və drammatik boyalara biganə qalmasaq da, qəhrəmanların müşahidələri, mühakimələri bizi cəlb etsə də, əsər insan taleyinin, onun daxili aləminin miqyaslı bədii dərki, geniş çərçivədə ümumiləşməsi səviyyəsinə yüksəlmir. Mənə elə gəlir ki, yazıçının bu istiqamətdə cəhdləri gözlədiyimiz, arzu etdiyimiz nəticəni verməmişdir" Təbii ki, səksəninci illərin ədəbi tənqidi Anarın bu romanına münasibətdə səmimi idi. Çünki yeni ədəbiyyat, insanın daxili aləmini, hiss və emosiyalarını, iç dünyasını əks etdirən ədəbiyyat idi. "Altıncı mərtəbə" özü də dərk edilməz müəmma idi. Ancaq bununla yanaşı, Anarın sənətkarlıq gücü kökə bağlılıqda, klassik ənənəsinin varislik ruhunu qoruyub saxlamaqda, milli dəyərlərdən bacarıqla istifadə etməsində idi. Əslində Anar "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanında kökə, əsl sevgiyə, aşiq - məşuq məhəbbətinə qayıda bilmişdi. Daha doğrusu milli zəminə əsaslanan bir sevgi macərasını qələmə almışdı. Lakin bu sevgi müasir cəmiyyətdə dərk edilən deyildi. Əslinin, Gülgəzin, Şahsənəmin sevgisi öz dövründə nə qədər maneələr, "uçurum dərələr"lə üzləşirdisə, Zaurla Təhminənin məhəbbəti də bu uçrumsuz dərələrsiz - maneələrsiz keçinə bilmir. "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanında intellektual düşüncədən, etnik yaddaşın folklor qatında yaşayan təxəyyüldən istifadə çox güclüdür. Bunu təkcə Zaur - Təhminə məhəbbətinə mane olan - adət-ənənələrdə, yaman ad, yaxşı - pis övlad, ata - ana

qütblərində deyil, eyni zamanda romanın baş qəhrəmanları olan Təhminə və Zaurun şəxsində də aydın görmək mümkündür.

Təhminənin də taleyi öz sələfləri olan dastan qəhrəmanlarının taleyi kimidir. O da öz zəmanəsinin ədalətsizliklərinin, uğursuzluqlarının, ziddiyyət və təzadlarının qurbanıdır. Zaman onun da taleyinə ədalətsizliklər yazmışdır. Sevmədiyi insanla nigah Təhminəni dəyişdirmiş, öz təbii axarından çıxarmış, açıq - saçıqlığa alışdırmış, evin bir növ həm qadınına, həm də ailənin başçısına kişisinə çevirmişdir. Zamanın bir sıra uğursuzluqları Əsli, Leyli kimi onun da nəsibi olmuşdur. Manafın laqeyd münasibəti onu da yavaş-yavaş dəyişmiş və ən son nəticədə cəmiyyətin meşşan meyarı qəlibinə salmışdır. Əslində Təhminənin meşşanlığı onun Zaura yönələn dəlicəsinə sevgisindən başlayır. Bu sevginin özündə də güclü folklorizm vardır. Ehkamları, adət-ənənələri qırıb cəmiyyətdə önə çəkilən, diqqət mərkəzinə yönələn aşiq və məşuq sevdasında olduğu kimi. Təhminə ehkamlara qarşı vuruşa - vuruşa öz sevgilisinə bağlanır. Gündən-günə bu sevgisini möhkəmlədir. Nə Zaurun anası Zivərin telefon zənglərinə, nə də Alya xanımın gizli hədə - qorxularına məhəl qoymur. Təhminə dastan süjetlərindəki qəhrəman məşuq səviyyəsinə yüksəlir. Amma bütün bunları Zaura şamil etmək olmur. Zaur öz sevgisində Təhminə səviyyəsinə yüksələ bilmir. Nə qədər dərin sevgi zirvəsinə yüksəlsə də, Zauru qısqanclıq, şübhə, inamsızlıq didib dağıdır. Təhminə onun sevgisinə mane olan qüvvələri öz ətrafından dağıdıb parçalamaqda, "uçurum dərələri" aradan qaldırmaqda daha cəsarətli və risklidir. Təhminənin şəxsiyyətindəki folklorizm təhrif edilmiş, meşşanlığa yuvarlanmış folklorizm deyildir. Təhminə öz ünvanına söylənən bütün iradlar və ittihamlardan təmizlənməyə çalışır, istəyir ki, Zaurun təmiz məhəbbətinə layiq olsun. Bu, Təhminənin öz sevgisi uğrunda apardığı mübarizənin yeni məqamı, yeni yüksəlişidir. Lakin Zaurun sevgisi hələ buna hazır deyil. Zaur hələ "uçrum dərələri" məhv etmək iqtidarında deyildir. Şübhələr, suallar, qısqanclıq Zaurun yaxasından əl çəkmir. Zaur dastan süjetinin aşiqi səviyyəsinə yüksələ bilmir. Yalnız Firəngizlə evlənib Təhminədən yeni bir "qisas" almaqla öz şübhələrinə son qoymaq istəyir. Bununla Təhminədən uzaqlaşmağa, onu yaddan çıxarmağa çalışır. Lakin Təhminə öz ölümü ilə Zaura olan məhəbbətini əbədiyyətə qovuşdurur. Daimi, həmişəlik olaraq Zaurun qəlbində, ruhunda yaşamaq səlahiyyəti qazanır. İki ruhun aşiqlə - məşuqun ruhlarının görüşdüyü, qovuşduğu yer isə Təhminənin yaşadığı beşmərtəbəli evin altıncı mərtəbəsi idi.

Roman kompozisiyasında yenidən dastan ənənəsi özünü göstərir. Təhminə öz ölümü ilə onun sevgisinə mane olan bütün əngəllərə qalib gəlir. Zaurun Təhminənin ruhu ilə yaşayan, ona qovuşan sevgisi isə əslində fiziki cəhətdən sağ, mənəvi cəhətdən öz sevgilisinə qovuşan varlıq təəssüratı doğurur. Zaurun fiziki sağlığı oxucuda ötəri təəssürat yaradır, onu gah Məhəmməd Nəsirin badə yoldaşına çevirir. Beşmərtəbəli evin altıncı mərtəbəsinin mövcudluğuna inandığı qədər oxucu Zaurun varlığına inana bilir.

Göründüyü kimi, Anarın romanı məhəbbət dastanlarımızın bir çoxunun sonluğunda olduğu kimi, baş qəhrəmanların mənəvi və ya fiziki yoxluğu ilə başa çatır, lakin onların təmiz məhəbbəti mən deyərdim ki, təmənnasız və ülvi məhəbbəti heç birinə xoşbəxtlik gətirmir. Xalqın estetik düşüncəsindən Anar yaradıcılığına süzülüb gələn bu folklorizmdə eyni zamanda bu günü insanları faciələrə sürükləyən, onların xoşbəxtliyini əllərindən alan qaydalarına, ənənələrinə və ölçülərinə dərin bir etiraz özünü göstərir. Anar cəmiyyətin bütün bu kimi eybəcərliyini qüdrətli folklorizmə çevirib oxucuya təqdim edəndə, Təhminə və Zaurun taleyini folklor qaynaqları və süjeti zəminində təqdim edəndə o, ibrətamiz olur. Müasir nəsrin tələbləri səviyyəsində cəmiyyətdə gözə dəyən bu hekayəti dəyərləndirəndə Anarın meşşan həyatına baxışı və münasibəti kimi oxucuya təqdim edilir. Məhz elə bu keyfiyyətlərinə görə Azərbaycan nəsrində folklorizmin təkcə təsir imkanlarını deyil, eyni zamanda onun əks olunma yolu, forması və şəkilləri də bu gün son dərəcə böyük əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. Anar. Beşmərtəbəli evin altıncı mərtəbəsi. Bakı, Yazıçı, 1981-356 s.

2. Fizuli M. Leyli və Məcnun. II cild, Seçilmiş əsərləri. 6 cilddə. Bakı, Azərbaycan, 1996.-357 s.

3. Hüseynov A. Sənət meyarı. Bakı, Gənclik, 1986-314 s.

4. Qarayev Y. Meyar-şəxsiyyətdir. Bakı, Yazıçı, 1988-456 s.

**Манафлы Ханымана**

**Фольклоризм в романе Анара «Шестой этаж пятиэтажного дома»**

**Р Е З Ю М Е**

В статье сравнивается роман Анара «Шестой этаж пятиэтажного дома» с великой легендой Востока «Лейли и Меджнун». Здесь анализируются паралели, объединяющие роман с легендой. Анар в своём произведении представляет читателю все отрицательные стороны общества, и как это превращается в фольклоризм. В упомянутом произведении Анара открыто выражен протест против обычаев и обрядов, которые приводят людей к трагедии и несчастьям. Всем этим вопросам в статье дается полный анализ.

**Manafli Xanimana**

**The folklorizm in Anar's roman "The six floor of five-fllor house"**

**S U M M A R Y**

In the article the Anar`s novel «The six floor of five storeys house» compare vith the greatest legend of East «Leyli and Mecnun». The article analysed the parallels uniting the novel vith the legend. Anar in his vork present to the reader the all negative sides of society and how this turn into the folklorizm. In the mention work of Anar openly pronounced protest against customs and ceremonies which take the people to the tragedy and accidents.